# Baharda doğulanlar

## (Cəfər Cabbarlı, İsmayıl Şıxlı, Salam Qədirzadə, Ənvər Əlibəyli)

Turan Uğur
AYB-nin üzvü



**Qeyd: Bu esseni vaxtilə Mədəniyyət Tv-də yayımlanan, müəllifi olduğum “Sətirlər” verilişinin, “Baharda doğulanlar” rubrikasının ssenariləri əsasında yazmışam.**

**(başlanğıcı ötən sayımızda)**

***...Əslində, “hər bir elm fədaisindən, maarifçi soydaşımızdan bu obrazda pay var”-desək qətiyyən səhv etmərik. Bəs yazıçı “Dəli Kür”-filmini necə görürdü? Ədibin böyük oğlu Elçin Şıxlı ilə bu haqda xeyli söhbət etmək imkanı bulurkən, həm***



***də yeni-yeni faktlar öyrənə bildik. Əslində, filmin romanla müqayisədəki sönük durmasının səbəbləri çox idi. Yəqin ki, çuğulların, danos yazanların “əməkləri” olmasaydı, 2 seriyalı, rəngli və tam şəkildə monumental bir ekran əsəri görə bilərdik.Cinni Cəfər qoşunu kimi ortalığa doluşan, hər vəchlə yuxarılara qarayaxmalar yazıb, yarınmağa çalışan, “Dəli Kür”-ün önünə keçmək istəyənlər, belə əcaib sonluğa malik film görməkdən məmnun olmuşlarmı?!***

-Olmuşlar, fəqət İsmayıl Şıxlıya olan sevginin önünə keçə bilməmişlər.Sevgi bu-Ümidənin ümid dolu məhəbbəti və oxucu eşqi Şıxlını şıx kimi insana çevirmiş, “Namərd gülləsi”, “Namus qaçağı”,”Ölüləri qəbiristanda basdırın” kimi hekayələrin, “Ayrılan yollar”, ”Ölən dünyam” təki romanların müəllifinə sonsuz dualar, alqışlar qıldırmışdı.Hikməti-xuda deyilən şey budursa, bir az da Ümidə ilə yazıçının taleyindən danışmalı, danışıb da xeyli düşünməli, düşünərkən 22 mart tarixli İsmayıl və Ümidə Şıxlının təvəllüdlərindən tutmuş soyadlarına qədər ölçülüb-biçilən həyat tarixçəsinə ehtiram bəslənməlidir.

Ümidə xanım həyat yoldaşı idi İsmayıl Şıxlının. Təvəllüdləri fərqli olsa da, hər ikisi eyni gündə, martın 22-də Novruz bayramı günlərində doğulmuşlar.Yazıçının son günlərində “Ölən dünyam” romanını məhz İsmayıl Şıxlının diktəsi ilə Ümidə xanım yazmışdı.Axı son illərində İsmayıl müəllimin uzaqgörən gözləri nurunu itirmişdi, ona görə də Ümidə xanım yazıçıya həyat yoldaşı olmaqla kifayətlənməmiş, həm də ona qələm yoldaşı olmuşdu.

O qələmə 76 illik həyatında hər zaman sadiq qalmış İsmayıl Şıxlı. -Azərbaycan istiqlalında mütləqdir ki, İsmayıl Şıxlının da payı var.O, siyasətçi deyildi, lakin heç vədə xalqın ağrı-acısına etinasız qalmazdı.Qarabağdakı gərgin döyüşlər vaxtı, Qazağın sərhəd zonasına yaxın bağda bir kətil tapıb əyləşmiş, təxminən 1-2 saat çay içib, soyuqqanlığı, mərdliyi, vətənsevərliyi ilə təlaş və təşviş içində olanlara örnək olmuşdu İsmayıl Şıxlı.Ətrafdakılar:

-“Kişi Bakıdan gəlib qızğın döyüşlərin, şiddətli atışmaların içində rahatca çay içirsə, deməli, möhkəm olmaq lazımdır”- demişlər.

-Mən Kürə aşiqəm, Kür mənə aşiq. Mən Kürə məftunam, Kür mənə məftun.Mən Kürə heyranam, Kür mənə heyran.

**Ana Kür!..yaşa Kürüm!**
**Hələ neçə ömür**
**Yaşadacaq könüllər səni!**

Salam Qədirzadəyə məxsusi olaraq bu doğum günü ərəfəsində salamlar olsun.Salam olsun Salam kişiyə.

Salam Qədirzadə 1923 –cü il aprelin



10-da ona görə dünyaya gəlməmişdi ki, mühəndis olsun, həkim olsun, hakim olsun, xeyr, ona görə doğulmuşdu ki, yazıçı olsun.Yazıçı deyiləndə öz həyatında müşahidə etdiklərini bir-iki bər-bəzəkli sözlə oxucuya təqdim edən deyil.Müəyyən cəmiyyət içərisində, müəyyən şərait daxilində hislərini, fikirlərini insanlara çatdıranlardır yazıçılar.Ürək antenalarını xalqın könlünə tuşlayanlardır , təbii ki, mənim təbirim və mənim tərifimcə.Bir də ki, yeddi övladın içərisində yeddi min dərd görüb xoflanmayan, böyük oğlan övladı kimi ailəni dolandıran da, yeniyetməlik illərinə vida edib gənclik çağlarına salam verməmiş müharibənin hərarətini, vəhşətini duyan da Salam Qədirzadə idi. Savaş zamanı rabitəçi olan Salam Qədirzadə dəfələrlə Əzrayıldan əhvalpürsanlıq etmiş, ölümün pəncəsindən sivişib çıxmağı da bacarmışdı.Hərbdən sonrakı illərdə o zamanın bir çox gəncləri kimi Moskvaya təhsil dalınca yollanmaqda israrlı idi.”Bəs necə, elm Çində də olsa dalınca getməli” tərifini görünür gənc Salam da yaxşı əzbərləmişdi.Nəbi Xəzri, Əli Kərim, İsa Hüseynovla eyni vaxtda Moskvada təhsil alıblar.Tək institut yox, onları birləşdirən avazımış yataqxana otağı da vardı.Bir də yeməkxanalarda masa üzərində qalmış boyat çörək, xardal nə tapsaydılar qarınlarını doyuzdurarmışlar. Ac tələbəlik illəri gələcək uğurların rəhnidir, çoxları üçün bu, belə olmuş, məgər istqibal dediyin istibdaddan keççirmi?!

***Elə bir adsız əsər varmı, onu sizdən başqa heç kəs oxumasın?***

***Birini mən tanıyıram.Nə idi o qızınnnn adı, hə Könül idi.O əsərin adı isə “46 bənövşə”.Uğursuz sevginin girdabında boğulan, birçəyində ağ tel gəzdirən, öz adı ilə yox, guya bacısı Mənzərənin məhəbbət xatirələrinin qələmə alan insanlardır əsl müəlliflər.***

Kim sevərək oxumamışdı yazıçının bu əsərini? Kim nankor Dəryanın Könülə olan nahaq münasibətini qınamamışdı ki, gəncliyində.Kim kitabın vərəqlərini çevirərkən intim, lətif məqamları həvəslə aramamış, bundan utanıb da sifətində qızardılmış lalə yerinə rast gəlməmiş, qarsalanmış üzünü kitab səhifələri ilə örtməyə cəhd etməmişdi ki?...Bütün bunlarla yanaşı oxuduğu kitabın arasında 46 bənövşə arayanlar da olmuşmu? Olmuş- deyə düşünürəm.Kövrəklik, paklıq insan içini və dışını bu qədər sarıyarsa, “46 bənövşə” kimi əsərlərin dəyəri o zaman anlaşılar əlbəttə.

Əlbəttə, arxa bildiyimiz, öyündüyümüz şair ömrü yaşayan Ənvər Əlibəylini də xatırlamaq keçdi bu bahar günlərində.

**Səhər oldu, pəncərəmdən**
**Qucaq-qucaq**
**İşıq doldu otağıma**
**Pəncərədən çölə baxdım,**
**Ətirli bir külək dəydi**
**Yanağıma**
**Göy yarpaqlı cavan söyüd**
**Sanki mənə verdi salam**
**Pıçıldadı aram-aram**
**Qanad çalan qaranquşlar:**
**Gəldi bahar!**
**Gəldi bahar!**

Bu misralar baharda dünyaya göz açan, biz Azərbaycan Televiyası əməkdaşlarına bir yox, min köynək yaxın olan Ənvər Əlibəyliyə məxsusdur.Həmişə onun ismini gözəl nəğmələrin, şərqilərin titrlərində aramışıq. Haqqımız da var.Gözəl sözlər, məzmunlu mətnlər nəğməyə çevrilirsə deməli, şair ürəyinin həlimliyi varmış, deməli, “Azərbaycan”, “Xəzərim”,”Sevgilim”, “Gəlmədin” kimi mahnı müəllifliyində Ənvər müəllimin adı çəkilməli, deməli, Ənvər Əlibəyli



poeziyasını sevməyə səbəblərimiz yetərincədir.Bir bahar günündə aprelin 1 –i 1916-cı ildə dünyaya göz açan Ənvər Əlibəyli hər şeydən öncə ziyalı bir kəs kimi xatırlanır. Ziyalı - yəni ki, ziyası, nuru beynini, ürəyini çulğamış insan, işığı ilə özündən sonranı aydınladan bir kəs-bütöv bir şəxsiyyət.Onun da gəncliyi savaş illərinə təsadüf edir.Məşhur “416-cı Taqonroq diviziyası” nda döyüşən, yaralanan şair ədəbi mühitdə 416-cı yerdə qalmadı.Çox irəli getdi.”Ədəbiyyat qəzeti”, Radio, daha sonra Televiziya ecazı onun tərcümeyi-halına yazıldı.”Qaranquş” adlı ilk şeirlər kitabı, ardınca “Sənin adınla”, “İlk məhəbbət”,” Bir kitab şeir” kitabları onu oxuculara sevdirdi.

**Qəlbimi ovlayan o nazlı dilbər,**
**Sənin fərağına dözə bilmirəm.**
**Yanağın lalədir, üzün sənubər,**
**Uzadıb əlimi üzə bilmirəm.**
**O gündən ki, səndən aralanmışam,**
**Hicran yollarında paralanmışam.**
**Bir külək tərlanam yaralanmışam,**
**Göyərçin üstünə süzə bilmirəm.**

Göyərçin kimi süzəcək və və Qu quşu kimi sevilıəcək fəsildir bahar.Elə isə bu Yazağzında hələ çox şairlərimizin, ədiblərimizin ruhunu sevindirməyə israrlıyam.Onda baharda doğulanların timsalında bütün türk ulusunun, Azərbaycan xalqının Novruz bayramını qutlamağın, Tanrıdan hər kəsə sağlıq, hüzur diləyində bulunmağın əsl məqamıdır.

***Baharınız və bayramınız mübarək, yurddaşlarım!***